Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 18 (1146) 29 yanvar - 30 yanvar 2016-cı il

(əvvəli ötən saylarımızda)

# LERİK - 2015

**"Hər bir kənd təsərrüfatı əməkçisi, hər bir fermer, sahibkar, ümumiyyətlə kənd təsərrüfatı ilə məşğul olan və bu sahəyə diqqət yetirmək məsuliyyəti daşıyan təşkilatlar, qurumlar birmənalı şəkildə zəruri olan bütün tədbirləri görməlidilər. Elə etməliyik ki, insanlarımız öz əməklərinin bəhrəsini görsünlər və heç bir ərzaq problemi ilə qarşılaşmasınlar".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

**İki gün öncə Azərbaycan prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında diqqət çəkən konfrans keçirildi. Konfransda dövlət qurumlarının rəhbərləri ilə yanaşı, sahibkarlar da iştirak edirdi. Konfransın başlıca məqsədi də bu gün bütün dünyada hökm sürən iqtisadi durumun, yəni infilyasiyanın ölkəmizə təsiri və bu problemin yerli imkanlar hesabına qısa bir zamanda aradan qaldırmaq üçün müəyyən təkliflərin, fikir mübadiləsinin ortaya qoyulması idi. Bax elə ölkə prezidentinin keçirdiyi digər tədbirlərlə yanaşı, bu konfransda da regionların inkişaf etdirilməsi, yerli resursların daha çox və məqsədli, planlı şəkildə əhalinin istifadəsinə verilməsi xüsusi vurğulandıö. Cənab prezident bəyan etdi ki, ölkənin regionlarında kifayət qədər resurslar, imkanlar var və sadəcə bunu görmək, bundan dövlət və xalq naminə planlı şəkildə istifadə etmək və Azərbaycanın iqtisadiyyatını məhz qeyri-neft sektoru sahəsinin bazasında daha da inkişaf etdirmək hər kəsin məqsədi olmalıdı. Xüsusilə rayon rəhbərlərinin, dövlət qurumlarının və təbii ki, həm də sahibkarların.**

Bu mənada yanaşanda, onda məlum olur ki, bu gün Lerik rayonun coğrafiyası da burada kənd təsərrüfatının müxtəlif sahələrini inkişaf etdirməyə imkan verir. Xüsusilə heyvanldarlıq sahəsinin bu rayonda artırılması, mal-davarın cins tərkibinin yeniləşdirilməsi, ətlik, südlük cinslərin artırılması üçün planlı şəkildə işlər görülməlidir. Təbii ki, bu günə qədər Lerik rayonunda bu istiqamətdə rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırovun və onun komandasının rəhbərliyi altında işlər görülüb və görülməkdə də davam etdirilir. Əgər rəqəmlərə diqqət yetirsək, onda görərik ki, ötən il bu kənd təsərrüfatı rayonunda iribuynuzlu mal-qaranın baş sayı 37000 başdan yuxarı, qoyun və keçilərin sayı 128000 ötüb keçmişdi. Təbii ki, bu işdə lizinq yolu ilə gətirilən cins heyvanların fermerlər tərəfindən öz təsərrüfatlarına daxil etmələri müsbət təsir göstərmişdi. Və bunun nəticəsində də il ərzində rayonda ət istehsalı xeyli yüksəlmiş və rəqəmlərlə ifadə etsək, onda deyə bilrik ki, təsərrüfatlardan diri çəkidə təqribən 3800 ton ət, 70000-dən artıq yumurta, 14000 ton süd istehsal olunmuşdu. Təbii ki, bu məhsul artımı da həm heyvandarların, həm də bütövlükdə bu sahə ilə iaşğul olan insanların ailə büdcəsinin möhkəmlənməsinə, imkanlarının genişlənməsinə şərait yaratmışdı.



Yeri gəlmişkən onu da vurğulayaq ki, Lerik rayonunda heyvandarlığın inkişafı üçün zəruri olan otlaq sahələrinin və yem tədarükünün özü də diqqətdə saxlanılmış və bu da heyvandarlıqla məşğul olanların təsərrüfatı gərəkli olan yem tədarükünə öz müsbət təsirini göstərmişdi. O ki, qaldı əkin-biçin məsələlərinə, burada da işlər ürəkaçan olmuşdu. Biz rayonda olanda öyrəndik ki, ötən il təqribən 1200 hektar sahədən 2400 tona yaxın tuğda tədarük olunmuşdu. Həmçinin Lerikdə tərəvəz istehsalçıları da 1300 hektar sahədən 18000 tondan artıq kartof əldə etmişdilər. Ümumiyyətlə isə bu rayonda tərəvəz, meyvə istehsalı ötən il daha uğurlu olmuş və nəticədə də 295 hektar sahədən təqribən 4000 ton tərəvəz əldə olunmuşdu. Bar verən meyvə bağlarının məhsuldarlığı da artmış və nəticədə 3000 tona yaxın meyvə toplanaraq həm yerli sakinlərin, həm də ölkə vətəndaşlarının tələbatına yönəldilmişdi.

Təbii ki, arxada qalan il ərzində əldə olunmuş nailiyyyətlər bu il üçün də yaxşı bünövrənin hazırlanmasına imkan vermişdi. Yəni artıq rayon ərazisində təqribən 13000 hektar şum aparılmaqla səpin də uğurla başa çatdırılmış və bu ilin daha bol buğda tədarükünə bir növü stimul yaradılmışdı.

Dağlar qoynunda yerləşən Lerikdə insanların sosial təminatını yaxşılaşdırmaq, həyat şəraitini yüksəltmək üçün kompleks tədbirlər görülüb. Bu tədbirlər arasında rayonun yaşayış məntəqələrinin qaz, elektrik enerjisi, su, rabitə problemlərinin həll edilməsi əsas məqsəddi. Əgər ötən il görülmüş işlərə nəzər salsaq, onda görərik ki, Lerik rayonunun 162 yaşayış məntəqəsində təqribən 14122 ailənin, eləcə də 39 yaşayış məntəqəsi üzrə 3755 ailənin mənzilləri qazlaşdırılıb. Bu rəqəm adi statistika olsa da, amma üst-üstə götürəndə onda məlum olur ki, Lerik rayonunda insanların qazla təmin edilməsi məsələsi planlı və diqqətli bir şəkildə reallaşdırılıb. Bu gün də rayonun bir çox yaşayış məntəqələrinin qazla təmin edilməsi istiqamətində işlər aparılır və rayon rəhbərliyinin "Azərqaz" İstehsalat Birliyi ilə apardığı danışıqlar nəticəsində bu işlərin cari ildə daha böyük miqyasda reallaşmasına artıq stimul yaranıb. İşlərin gedişi göstərir ki, bu məsələ də tezliklə öz həllini tapacaqdı. O ki, qaldı rayonun elektrik enerjisi, su problemlərinə, icra hakimiyyəti başçısı yanındakı Şura həmin problemlərin yerində həllini diqqətdə saxlamaqla yanaşı, demək olar ki, məsələnin özünün iclaslarda mütəmadi olaraq nəzərdən keçirir, müvafiq qərarlar qəbul edir.



Bəli, bu gün Lerik rayonunda təhsil, səhiyyə, mədəniyyət məsələləri də diqqətdə saxlanılır. Belə ki, təkcə yeni məktəb binalarının tikintisi yox, həm də təmirə ehtiyacı olan məktəblərin də normal fəaliyyətini təşkil etmək üçün rayon rəhbərliyi və yerli təhsil şöbəsi əlaqəli şəkildə işlər görməkdədi. Məhz həmin işlərin nəticəsidir ki, Pirasora kəndində 180 şagird yerlik tam orta məktəb artıq qapılarını müəllim və şagirdlərinin üzünə açıb. Rayonun Boykənd, Əvilə, Ambu kəndlərində də məktəb binalarının tikintisi uğurla davam etdirilməklə yanaşı, bu kənd məktəblərinin bir qisminin də istifadəyə verilməsi reallaşmışdı.

**Bəli, Lerik rayonunda səhiyyə, mədəniyyət ocaqlarının tikinti-təmir işləri də uğurla aparılır və insanların sağlamlığı, mənəvi rahatlığı üçün zəruri məsələlərin həlli gecikdirilmir. Bu da öz növbəsində regionun daha sürətlə inkişafına təkan verir.**

***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ